# Valeh Məmməd oğlu Şamilov – 60 il!



Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (SOCAR) "Nanotexnologiyalar" Departamentinin rəisi, əməkdar mühəndis, 35 ildən artıq neft-qaz sənayesində çalışan neft üzrə mütəxəssis Valeh Məmməd oğlu Şamilovun 60 yaşı tamam oldu.

O, 1 yanvar 1959-cu ildə anadan olmuşdur. 1977-ci ildə orta məktəbi bitirdikdən sonra M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) neft-mədən fakültəsinə qəbul olunmuş və 1982-ci ildə təhsilini başa vuraraq, dağ-mədən mühəndisi ixtisasına yiyələnmişdir. Daha sonra təyinatla Sibirə, Xantı-Mansi vilayətinin Nyaqan şəhərində o zamanlar yenicə yaradılmış "Krasnoleninsknefteqaz" Neftqazçıxarma İdarəsinə göndərilmiş, orada neft-qaz operatoru kimi əmək fəaliyyətinə başlamışdır. Qışda sərt və şaxtalı, yayda isə isti və rütubətli hava şəraiti gənc Valehi qorxutmamış, on ildən artıq həmin idarədə şərəfli neftçi peşəsinin sirlərinə yiyələnmişdir. Valeh müəllimə tez bir zamanda növbə rəisi, quyularda əsaslı və cari təmir ustası vəzifələri həvalə edilmişdir.

İşlədiyi müddət ərzində V.M. Şamilov istehsalatla yanaşı, elmi işlərlə məşğul olmaq haqqında da düşünürdü. Məhz bu səbəbdən o, istehsalatdan ayrılmadan təhsil aldığı institutun aspiranturasına daxil olmaq qərarına gəlir və "Quyudibi zonanın fiziki-kimyəvi üsullarla işlənməsi" mövzusunda elmi iş üzərində tədqiqatlar aparmağa başlayır.

Elmi fəaliyyətini vaxtında yerinə yetirmək üçün Valeh müəllim 1993-cü ildə Vətənə qayıdaraq, 2006-cı ilə qədər əmək fəaliyyətini "Azneft" İB-nin "Bulla-dəniz" NQÇİ-də texniki-istehsalat şöbəsinin rəisi kimi davam etdirmişdir. Bu müddətdə (1997-ci ildə) dissertasiya işini müdafiə edib, texnika elmləri namizədi elmi dərəcəsini almışdır.

Daha sonra 2006–2011-ci illərdə Valeh müəllim əmək fəaliyyətini "Azneft" İB-nin H.Z. Tağıyev ad. NQÇİ-nin idarə rəisinin istehsalat və təchizat işləri üzrə müavini, istehsalat işləri üzrə rəis müavini, "Azneft" İB-nin aparatında Texniki şöbənin mühəndisi və rəisi vəzifələrində davam etdirmişdir. 2011-ci ildə V.M. Şamilov SOCAR-da "Nanotexnologiyalar" Elmi-İstehsalat Mərkəzinin direktor müavini vəzifəsinə təyin edilmiş, sonradan "Nanotexnologiyalar" Departamentinin rəis müavini və 2014-cü ildən departamentin rəisi vəzifəsinə irəli çəkilərək, neft-qaz hasilatı, yeni texnika və texnologiyalar, neft sənayesinin inkişafında qabaqcıl və innovativ üsulların tətbiqində fəaliyyətini uğurla davam etdirməkdədir.

Onun rəhbərlik etdiyi elmi-istehsalat müəssisəsi Azərbaycanın quru və dəniz sahələrində yerləşən neft-qaz yataqlarında quyuların qazılması, neft-qaz hasilatı və digər istehsalat prosesləri zamanı qarşıya çıxan problemlərin həllində, o cümlədən qalıq neftin çıxarılması, quyularda qum və duz çökməsi, kənar suların izolyasiyası, qazma zamanı nanostrukturlu yüngül sementin hazırlanması və digər məsələlərin həllində xüsusi rol oynayır. Nanotexnologiyanın istehsalata uğurla tətbiqi nəticəsində SOCAR-da 15000 t-dan artıq əlavə neft əldə edilmiş, eyni zamanda Azərbaycanın neft sənayesi üçün yeni nəsil nanotexnologiyaların yaradılması, elmi-analitik tədqiqatlara əsaslanan intellektual məhsulun Avropa standartlarına uyğun sertifikatlaşdırılması, patentləşdirilməsi, bu sahədə müasir dünya təcrübəsinin mənimsənilməsi üçün bir sıra qabaqcıl universitet və elmi mərkəzləri ilə əlaqələr və işbirliyi qurulmuşdur. Belə ki, Almaniya, Rusiya, İran, İtaliya, Lüksemburq və Kanadanın nanotexnologiyalar sahəsində fəaliyyət göstərən qurumları ilə memorandum və protokollar imzalanıb və bu istiqamətdə onlarla sıx əməkdaşlıq edilir. Qarşılıqlı əməkdaşlıq çərçivəsində nanotexnologiyaların işlənməsi və tətbiqi istiqamətində birgə elmi-analitik tədqiqatlar həyata keçirilir, nanomaterialların alınması və istehsalı üzrə araşdırmalar aparılır.

Valeh Şamilov bir çox xarici ölkələrdə keçirilən elmi konfrans və sərgilərdə SOCAR-ın uzun və gərgin elmi-tədqiqat işləri nəticəsində nail olduğu nanotexnologiyalar barədə təqdimatları müvəffəqiyyətlə nümayiş etdirmiş və xarici mütəxəssislər tərəfindən böyük maraqla qarşılanmışdır.

O, 2014-cü ildən "Neftvermə əmsalının artırılması üçün innovativ üsulların işlənməsinin elmi və təcrübi əsasları" mövzusunda doktorluq dissertasiyası üzərində çalışır və elmi araşdırmalarını davam etdirir.

V.M. Şamilov 64 elmi əsər, o cümlədən 23-ü xarici, 30-u yerli nəşrlərdə olmaqla 53 məqalə, 2 tezis və 9 Azərbaycan patentinin müəllifidir.

2014-cü ildə Valeh müəllim, neft sənayesinin inkişafında səmərəli xidmətlərinə görə SOCAR-ın Fəxri Fərmanı, 2015-ci ildə dövlətimiz tərəfindən yüksək qiymətləndirilərək, Neftçilər günü münasibətilə "Tərəqqi" medalı ilə təltif edilmiş, 2018-ci ildə əməkdar mühəndis adına layiq görülmüşdür.

2018-ci ildən o, istehsalatla yanaşı Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərən Sənaye Müəssisələri İşçilərinin İxtisasartırma və Yenidənhazırlama İnstitutunun müəllimi kimi fəaliyyət göstərir, gənc nəslin neft-qaz sənayesinin sirlərinə yiyələnməsinə və neftçi kimi yetişməsinə çalışır.

Mənalı və şərəfli ömür yolu keçmiş Valeh müəllimi kollektiv adından 60 illik yubileyi münasibətilə təbrik edir, ona cansağlığı, uzun ömür və yeni-yeni nailiyyətlər arzulayırıq.

**Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin**
**"Nanotexnologiyalar" Departamentinin kollektivi**



